**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№372/6** **29 dekabr 2024-cü il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 13 aprel tarixli 355/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında" Təlimatda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin "Auditorlar Palatasında "Auditorun səsi" mövzusunda 2024-cü il 26 noyabr tarixində keçirilmiş onlayn tədbirdə verilən təkliflərin reallaşdırılması barədə" 2024-cü il 06 dekabr tarixli 10-1/3-3-14/2024 nömrəli sərəncamının icrasını təmin etmək məqsədilə Palata Şurasının 2023-cü il 13 aprel tarixli 355/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında" Təlimatda müvafiq dəyişikliklərin edilməsi barədə layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik(illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında" Təlimatda müvafiq dəyişikliklərin edilməsi barədə təkliflər bəyənilsin.

2. Aparatın rəhbəri Q.Bayramova, Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) və Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, 3 həftə müddətində "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında" Təlimatın "Müqavilənin statusu" bölməsinin 1-ci abzasının 2-ci "istifadəçi rəyi müqavilə bağlandıqdan 3 gün sonra verə bilər" cümləsi dəyişdirilərək, "istifadəçi maliyyə hesabatlarının auditi ilə bağlı rəyi müqavilə bağlandıqdan ən azı 7 gün, əlaqəli xidmətlər üzrə rəyi müqavilə bağlandıqdan ən azı 5 gün sonra verə bilər və rəy verilməsi tələb olunmayan məsləhət və digər peşəkar xidmətlər üzrə müqavilənin imzalandığı və "Auditorun şəxsi kabineti" sistemində qeydiyyatdan keçirildiyi tarixdən sonra xidmətlərin icrasını tamamlaya bilər" kimi redaktə edilməsi təmin edilsin.

3. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) tapşırılsın ki, 2025-ci ilin I yarımili ərzində təqdim edilən təkliflərin reallaşdırılması məqsədilə "Auditorun şəxsi kabineti" sistemində müvafiq funksionallığın hazırlanması və tətbiqi təmin edilsin.

4. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) tapşırılsın ki, bu qərarın və dəyişiklik edilmiş "Auditorun şəxsi kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında" Təlimatın mətnlərinin Palatanın internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**